

# Həsrətdən doğan duyğular

**Xocavənd rayonunun Tuğ kənd uşaq məktəbi 21 il əvvəl yaradılıb. Elə o vaxtdan da məktəbə Alı Hüseynov rəhbərlik edir. Alı müəllim yalnız yüksək təşkilatçılıq bacarığı ilə deyil, həm də poeziya həvəskarı, gözəl şeirlər müəllifi olması ilə həmkarlarından fərqlənir. Bu şeirlər ayrı-ayrı mətbuat orqanlarında işıq üzü görüb, oxucular tərəfindən maraqla qarşılanıb.**

**Hüseynov Alı Hüseynalı oğlu 1955-ci il fevralın 25-də İmişli rayonunun Əliqullar kəndində anadan olub. Əmək fəaliyyətinə 1979-cu ildə Füzuli şəhər 1 saylı uşaq musiqi məktəbində müəllim kimi başlayıb.**

1985-ci ildə Ü.Hacıbəyov adına Ağdam musiqi texnikumunu bitirib. Səs şöbəsinin məzunu tək müəllimlik fəaliyyətini davam etdirib. 1990-cı ildən Tuğ kənd uşaq musiqi məktəbinin direktorudur.

Məktəb fəaliyyətə başlayarkən burada 60 uşaq oxuyub. Onların təlim-tərbiyəsi ilə 6 nəfər müəllim məşğul olub.

Məlum səbəblərə görə qaçqınlıq həyatı yaşayan məktəb artıq neçə ildir ki, Bakı şəhəri, Xəzər rayonunun Şüvəlan qəsəbəsindəki "Ay işığı" sanatoriyasında onun üçün ayrılmış 10 sinif otağında məskunlaşıb.

Hazırda burada 167 nəfər şagird oxuyur. Onların musiqi duyumunun inkişafı, musiqi zövqünün formalaşması məqsədilə 49 nəfər, o cümlədən 6 nəfər ali təhsilli müəllim çalışır.

Məktəbdə qabaqcıl müəllimlər çoxdur. Onlardan Sevinc Həsənova (fortepiano), Zaur Baxşəliyev (tar), Fəridə Qasımova (nəzəriyyə), Telman Əkbərov (nağara), İlahə Hacıyeva (fortepiano), Fəxrəddin Salmanov (tar), Cahid Məmmədov (qarmon), Fatma İsgəndərova (səs), İlkin Əhmədov (səs. O, prezident təqaüdçüsüdür) və başqaları sənətlərini ürəkdən sevir, vəzifələrinə ciddi yanaşır, yetirmələrinin vətənə layiq övlad kimi yetişmələri üçün əllərindən gələni əsirgəmirlər.

Məktəbin istedadlı uşaqları həmişə festival və müsabiqələrə fəal qoşulurlar.

Keçən il Abbasbəyli Tale Mahir oğlu Astara uşaq muğam ifaçılarının müsabiqəsində fərqləndiyinə görə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Fəxri fərmanına layiq görülüb.



